Dekabrın 26-da elm və təhsil nazirinin müavini, nazirliyin Apellyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə şuranın növbəti iclası keçirilib.

İclasda Quba-Xaçmaz Regional Təhsil İdarəsinin Tədrisin keyfiyyəti sektorunun məsləhətçisi vəzifəsinə namizədlər Züleyxa Zəkili, Ruhəngiz Abdullazadə və Çimnaz Əmişovanın müsahibə nəticələri ilə əlaqədar şikayətlərinə baxılıb.

İclasda müsahibə komissiyaları üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb, iki şikayətin təmin edilməməsi, bir şikayət üzrə icraata xitam verilməsi barədə qərarlar qəbul olunub.